# *TƏFƏKKÜR UNİVERSİTETİNDƏ SOYQIRIM YAD EDİLDİ*

*Martın 30-da Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində 31 mart Azərbaycanlıların Soyqırımı gününə həsr olunmuş anım mərasimi keçirildi. Universitetin müəllimlərinin və tələbələrin iştirak etdiyi tədbirdə əvvəlcə Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

*Anım mərasimində çıxış edən universitetin rektoru, professor Rahim Hüseynov Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyini qeyd etdiyimiz 2018-ci ilin Azərbaycan üçün çox əlamətdar bir il olduğunu, bir əsr əvvəl ölkəmizdə müsəlman şərqində ilk parlament demokratiyasının yarandığını bildirdi. Gənc Demokratik Respublikanın yaranmasından öncə azərbaycanlılar torpaqlarımızın zorla zəbt edilməsi və günahsız həmyerlilərimizin qətli ilə nəticələnən kobud erməni millətçiliyi və separatçılığı ilə üzləşdiyini dedi. "böyük Ermənistan" yaratmaq xülyaları ilə yaşayan erməni daşnaqları 1918-ci ildə Bakı, Şamaxı, Salyan, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində minlərlə dinc azərbaycanlıları milli mənsubiyyətinə görə məhv edib, milli memarlıq incilərimizi, məscid və digər tarixi abidələrimizi dağıtmışlar.*

*Professor Rahim Hüseynov keçən əsrin 80-ci illərinin axırlarında SSRİ-nin süqutunun sürətlənməsindən istifadə edən ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədilə yenidən təcavüzə başladıqlarını, 1992-ci ilin fevralında Xocalıda azərbaycanlılara qarşı növbəti Soyqırım törətdiklərini, yüzlərlə azərbaycanlını qətlə yetirdiklərini yada saldı.*

*Tədbirdə çıxış edənlər erməni Soyqırımının uzun illər açıb-ağardılmadığını, ancaq Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra uzun illər gizli saxlanılan həqiqətlərin açıldığını dedilər. Ümummilli lider Heydər Əliyevin 1998-ci ilin martın 26-da imzaladığı fərmanla 31 mart azərbaycanlıların Soyqırım günü elan edildi. Bununlada Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşdi. Məhz o vaxtdan martın 31-ni Azərbaycanlıların Soyqırım günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişimizə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən Soyqırım qurbanlarının xatirəsini ehtiramla yad edirik.*